| | |
|---|---|
| **“Dövlət qeydiyyatına alınmışdır”** | **“Təsdiq edilmişdir”** |
| Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi | 01.08.2024-cü il tarixli səhmdarların<br><br>2 saylı protokolu əsasında<br>Səhmdarlar:<br><br>Həsənov Rifat Vaqif oğlu<br><br>Həsənov Nicat Vaqif oğlu<br><br>Cabbarova Leyla Vaqif qızı |

**“İNTERNATİONAL LEASİNG” Açıq Səhmdar Cəmiyyətinin**

**Nizamnaməsinə edilmiş**

**ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR**

3.1. Cəmiyyətin nizamnamə kapitalı:

Cəmiyyətin nizamnamə kapitalı 1 000 000 (bir milyon) manata bərabər tutulan hər birinin nominal dəyəri 50 (əlli) manat olan 20 000 (iyirmi min) ədəd adi sənədsiz adlı səhmdən ibarətdir.

3.2.Səhmdarlar haqqında məlumat:

Həsənov Nicat Vaqif oğlu– 9000 (doqquz min) ədəd adi sənədsiz adlı səhm; nominal dəyər-50 (əlli) manat, ümumi məbləğ-450 000 (dörd yüz əlli min) manat, pul şəklində.

Həsənov Rifat Vaqif oğlu– 9000 (doqquz min) ədəd adi sənədsiz adlı səhm; nominal dəyər-50 (əlli) manat, ümumi məbləğ-450 000 (dörd yüz əlli min) manat, pul şəklində.

Cabbarova Leyla Vaqif qızı– 2000 (iki min) ədəd adi sənədsiz adlı səhm; nominal dəyər-50 (əlli) manat, ümumi məbləğ-100 000 (bir yüz min) manat, pul şəklində.

**"Dövlət qeydiyyatına alınmışdır"**
Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Uçot İdarəsi

______________________________

**"Təsdiq edilmişdir"**
"İnternational Leasing" Açıq Səhmdar Cəmiyyətinin səhmdarları

Həsənov Rifat Vaqif oğlu

______________________________

Həsənov Nicat Vaqif oğlu

______________________________

Cabbarova Leyla Vaqif qızı

______________________________

Azərbaycan Respublikası "İnternational Leasing" Açıq Səhmdar Cəmiyyəti

"İnternational Leasing" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN 1405547011)

nizamnaməsinə edilmiş

**D Ə Y İ Ş İ K L İ K:**

Cəmiyyətin Nizamnaməsinin 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

1.3. Cəmiyyətin hüquqi ünvanı: AZ1110, Bakı şəhəri, Nərimanov rayonu, Ak.Həsən Əliyev küçəsi, ev 86A

"Dövlət qeydiyyatına alınmışdır"

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi
Qeydiyyat №________________________

«____» _________________ 2023-cü il

Rəis ______________________________

"Təsdiq edilmişdir"

"İNTERNATİONAL LEASİNG" Açıq Səhmdar Cəmiyyətinin səhmdarı

«____»___________________ 2023-cü

___________________________________
Həsənov Nicat Vaqif oğlu

" "

**"İNTERNATİONAL LEASİNG"**

**AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

# NİZAMNAMƏ

**(ikinci redaksiya)**

# I. ÜMUMİ MÜDDƏALAR

1.1. "İNTERNATİONAL LEASİNG" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra-Cəmiyyət adlandırılcaq) öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir və əsas məqsədi mənfəət götürməkdən ibarət olan kommersiya təşkilatıdır.

1.2. Qısaldılmış ad- "İNTERNATİONAL LEASİNG" ASC;

1.3. Cəmiyyətin hüquqi ünvanı: AZ1078, Bakı ş., Nəsimi rayonu, Əbdülvahab Salamzadə küçəsi, 160 M5, mənzil 1.

# II. CƏMİYYƏTİN FƏALİYYƏTİ

2.1. Lizinq xidmətlərinin həyata keçirilməsi;

2.2. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.

# III. CƏMİYYƏTİN NİZAMNAMƏ KAPİTALI

3.1. Cəmiyyətin nizamnamə kapitalı Cəmiyyətin nizamnamə kapitalı 50 000 (əlli min) manata bərabər tutulan hər birinin nominal dəyəri 50 (əlli) manat olan 1000 (bir min) ədəd adi sənədsiz adlı səhmdən ibarətdir".

3.2. Səhmdar haqqında məlumat: Həsənov Nicat Vaqif oğlu– 1000 ( bir min) ədəd adi sənədsiz adlı səhm; nominal dəyər-50 000 (əlli min) manat, ümumi məbləğ-50 000 (əlli min) manat, pul şəklində.

3.3. Cəmiyyətin nizamnamə kapitalı onun səhmdarları tərəfindən əldə edilmiş səhmlərinin nominal dəyərindən təşkil olunur.

3.4. Cəmiyyətin nizamnamə kapitalına qoyuluşların formaları Azərbaycan Respublikasının Mülki Məcəlləsi və təsisçilər arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Cəmiyyətin nizamnaməsinə qoyuluşlar pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar ola bilər. Cəmiyyətin yaradılması zamanı pul olmayan əmlakın dəyəri təsis yığıncağının qərarı ilə, Cəmiyyət yaradıldıqdan sonra isə - Cəmiyyətin səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə müəyyən edilir.

3.5. Cəmiyyətin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir və o, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz.

3.6. Cəmiyyətin nizamnamə kapitalı onun səhmdarları tərəfindən Cəmiyyət qeydə alınanadək tamamilə ödənilməlidir. Cəmiyyət təsis edilərkən onun bütün səhmləri təsisçilər (səhmdarlar) arasında bölünməlidir.

3.7. Əgər ikinci və ya hər bir növbəti maliyyə ili başa çatarkən Cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, Cəmiyyət öz nizamnamə kapitalının azaldığını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdarından az olarsa, Cəmiyyət ləğv edilməlidir.

3.8. Cəmiyyətin səhmdarının mayasının pulla qiymətləndirilməsi Cəmiyyətin səhmdarları arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir.

3.9. Cəmiyyət nizamnamə kapitalının ümumi həcminin 25%-dən çox olmamaq şərti ilə imtiyazlı səhmlər buraxmaq hüququna malikdir.

3.10. Cəmiyyətin səhmlərinin, istiqrazlarının və digər növ qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi, dövriyyəsi və ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, həmin Məcəlləyə müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlara və Cəmiyyətin nizamnaməsinə müvafiq olaraq həyata keçirilir.

3.11. Cəmiyyətin qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq həyata keçirilir.

3.12. Cəmiyyətin nizamnamə kapitalı səhmdarların Ümumi Yığıncağının qərarına əsasən səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə artırıla bilər.

3.13. Cəmiyyətin səhmlərinin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

3.14. Səhmdarların Ümumi Yığıncağının qərarına əsasən, Cəmiyyətin nizamnamə kapitalı səhmlərin nominal dəyərini və ya bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmaq yolu ilə azaldıla bilər. Cəmiyyətin nizamnamə kapitalının azaldılması haqqında səhmdarların Ümumi Yığıncağının qərarı qəbul edildiyi gündən on beş təqvim günü müddətində Cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir. Cəmiyyətin kreditorları məlumatı aldıqdan sonra otuz təqvim günü ərzində Cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini və çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər.

3.15. Cəmiyyətin səhmdarları onun öhdəlikləri üçün cavabdeh deyildirlər və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.

3.16. Cəmiyyət öz səhmdarlarına bu nizamnamə, ona edilən əlavə və dəyişikliklər ilə tanış olmaq imkanı yaratmalıdır. Səhmdarın tələbi ilə nizamnamənin surəti ona verilməlidir.

## IV. CƏMİYYƏTİN İDARƏETMƏ ORQANLARI

**4.1 Səhmdarların Ümumi Yığıncağı:**

4.1.1 Cəmiyyətin Ali İdarəemə Orqanı onun səhmdarlarının Ümumi Yığıncağıdır (bundan sonra «Ümumi Yığıncaq» adlanacaq).Ümumi Yığıncaq növbəti və növbədənkənar ola bilər.

4.1.2 Növbəti Ümumi Yığıncaq ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik Ümumi Yığıncaq).

4.1.3 İllik Ümumi Yığıncaq maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, icra orqanı tərəfindən çağırılır və bu barədə səhmdarlara məlumat verilir.

4.1.4 Ümumi Yığıncaq Cəmiyyətin illik maliyyə hesabatının yoxlanılması üçün əmlak mənafeləri ilə cəmiyyətə və ya onun səhmdarlarına bağlı olmayan cəlb edilmiş peşəkar auditorun rəyi alındıqdan sonra bu Nizamnamə ilə müəyyənləşdirilmiş müddətdən gec olmayaraq çağırılır.

4.1.5 Ümumi Yığıncağın çağırılmasına qırx beş gün səhmdarlara bu barədə yazılı bildiriş göndərilməlidir.

4.1.6 Ümumi Yığıncağın çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

- Cəmiyyətin adı və olduğu yer,

- Ümumi Yığıncağın gündəliyi;
- Ümumi Yığıncağının gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

4.1.7 Ümumi Yığıncağın müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

- Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin icra orqanını yaratmaq və onunu səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin Müşahidə Şurasının və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;
- Cəmiyyətin illik hesabatlarını və mühasibat balanslarını, mənfəət və zərər hesablarını təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;
- mənfəətin bölüşdürülməsi və zərərin ödənilməsi qaydalarını müəyyən etmək;
- xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir.
- Cəmiyyətin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;
- AR Mülki Məcəlləsinə əsasən müəyyən edilmi digər səlahiyyətlər.

4.1.8 Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən Cəmiyyətin icra orqanına, Müşahidə Şurasına və təftiş komissiyasına (müfəttişə) verilə bilməz.

4.1.9 Bu nizamnamə ilə Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərlə yanaşı Ümumi Yığıncaq nizamnamədə müəyyən edilmədiyindən asılı olmayaraq, Cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə və qərarlar qəbul edə bilər.

4.1.10 Səsli səhmlərin 60 faizinin sahibləri iştirak etdikdə Ümumi Yığıncaq səlahiyyətlidir.

4.1.11 Ümumi Yığıncaqda yetərsay olmadıqda, Ümumi Yığıncaq bu Nizamnamənin 4.1.19-cu bəndi ilə müəyyən edilmiş qaydada yenidən çağırılmalıdır. Bu zaman Ümumi Yığıncağın gündəliyi dəyişdirilməməlidir. Yenidən çağırılan ümumi Yığıncaq səsli səhmlərin 40 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

4.1.12 Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, Ümumi Yığıncaq bu Nizamnamənin 4.1.19-cu bəndi ilə müəyyən edilmiş qaydada, gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan Ümumi Yığıncaq səsli səhmlərin 25 faizinin sahibləri iştirak etdikdə səlahiyyətlidir.

4.1.13 Bu Nizamnamənin 4.1.11-ci bəndinə əsasən, təkrarən çağırılan Ümumi Yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, Cəmiyyət qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanına məlumat verərək, yetərsaydan asılı olmadan Ümumi Yığıncağın qərarı ilə və ya müvafiq icra hakimiyyəti orqanının iddiası əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər. Səhmdarların Cəmiyyətin ləğv edilməsi haqqında Ümumi Yığıncağın qərarından məhkəməyə şikayət etmək hüququ vardır.

4.1.14 Ümumi Yığıncaqda səsvermə «bir səsli səhm - bir səsdir» prinsipi əsasında həyata keçirilir.

4.1.15 Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar Ümumi Yığıncaqda səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu, digər məsələlər barədə qərarlar isə sadə səs çoxluğu ilə qəbul edilir.

4.1.16 Növbədənkənar Ümumi Yığıncaq icra orqanının öz təşəbbüsü ilə və ya təftiş komissiyasının (müfəttişin), yaxud səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə icra orqanı tərəfindən çağırılır.

4.1.17 Növbədənkənar Ümumi Yığıncağın çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

4.1.18 Növbədənkənar Ümumi Yığıncağın çağırılması haqqında tələbin (təşəbbüsün) daxil

- üç iş günü müddətində Ümumi Yığıncağın vaxtını və yerini təyin edib, bu barədə kütləvi informasiya vasitələrində elan verməlidir;
- beş iş günü müddətində Ümumi Yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;

4.1.19 otuz gündən tez, qırx beş gündən gec olmayaraq, Ümumi Yığıncağın keçirilməsini təmin etməlidir.
4.1.20 Ümumi Yığıncağa səhmdarların səs çoxluğu ilə seçilən sədr sədrlik edir.
4.1.21 Ümumi Yığıncağın bütün iclasları protokollaşdırılır, yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, Ümumi Yığıncağın sədri və katibi tərəfindən imzalandıqdan sonra Cəmiyyətin möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır.
4.1.22 Cəmiyyətin səhmdarları və ya onların səlahiyyətli nümayəndələri iclasın protokolları ilə tanış ola bilərlər. Ümumi Yığıncağın Protokolunda aşağıdakılar göstərilir:

- Ümumi Yığıncağın keçirilmə vaxtı və yeri;
- Ümumi Yığıncağın gündəliyi;
- Ümumi Yığıncağın iştirakçılarının səhm müqabilində səslərinin sayı;
- iştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;
- çıxışların xülasəsi;
- səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;

4.1.23 Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.
4.1.24 Səhmdarın tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.
4.1.25 Ümumi Yığıncağın qərarları Cəmiyyətin bütün orqanları tərəfindən qeyri-şərtsiz icra edilir.
4.1.26 Ümumi Yığıncağın gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərar qəbul edə bilməz.
4.1.27 Ümumi Yığıncaq tərəfindən qəbul edilmiş qərarlar on beş təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.
4.1.28 Ümumi Yığıncağın qərarından səhmdar məhkəməyə şikayət edə bilər;
4.1.29 Səhmdarların ümumi yığıncaqları qanunvericiyin tələbləri nəzərə alınmaqla, səhmdarların fiziki iştirakı olmadan xüsusi elektron proqram təminatı vasitələrinin köməyi ilə təşkil oluna bilər. Səhmdarlara göndərilən bildirişlərdə ümumi yığıncağın keçirilmə qaydası və iştirak qaydası ətraflı olaraq izah edilməlidir.
4.1.30 Səhmdarların Ümumi yığıncağı xüsusi eletron proqram vasitəsilə elektron qaydada fiziki iştirak olmadan keçirilə bilər.

**4.2 Direktor:**

4.2.1.Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik və onun işlərinin aparılması onun təkbaşına icra orqanı olan Direktor tərəfindən həyata keçirilir.
4.2.2. Direktorun səlahiyyətlərinə Azərbaycan Respublikasının Mülki Məcəlləsi və bu nizamnamə ilə Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələlər daxildir.

4.2.3 Cəmiyyətin səhmlərinin 20 iyirmi faizinə malik olan səhmdar cəmiyyətin Direktoru seçilə bilməz.
4.2.4 Direktor öz fəaliyyəti barədə Ümumi Yığıncağa hesabat verir.
4.2.5 Direktorun səlahiyyətinə aşağıdakılar aid edilir:

- Cəmiyyətin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- vəkalətnamə olmadan Cəmiyyətin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;

- Səhmdarların Ümumi Yığıncağının və digər orqanlarının müstəsna səlahiyyətlərinə aid olan məsələlərdən başqa, digər bütün məsəslələri həll edir;
- Cəmiyyətin adından bütün növ müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Cəmiyyətin cari və başqa bank hesablarını açır və maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır;
- Cəmiyyətin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, Ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- Cəmiyyətin struktur bölmələri haqqında əsasnaməni və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;
- Cəmiyyətin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir, Cəmiyyətin daxili əmək intizamı qaydalarına və qanunvericiliyə müvafiq olaraq onları intizam məsuliyyətinə cəlb edir;
- Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər (sərəncamlar) verir;
- Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlayır və təsdiq edir;
- Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

4.2.10.Ümumi Yığıncağın qərarı ilə Direktorun səlahiyyətləri artırıla, azaldıla və ya məhdudlaşdırıla bilər.

## 4.3. Təftiş komissiyası (müfəttiş):

4.3.1. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti və onun təftişini həyata keçirmək məqsədi ilə üç fiziki şəxsdən ibarət təftiş komissiyası (müfəttiş) yaradıla bilər.

4.3.2. Təftiş komissiyasının üzvləri (müfəttiş) səhmdarların Ümumi Yığıncağı tərəfindən Cəmiyyətin səhmdarı olmayan fiziki şəxslərdən seçilir və səlahiyyət müddəti üç ildən artıq olmayan müddətə müəyyən edilir.

4.3.3. Təftiş komissiyasının üzvü (müfəttiş) Cəmiyyətin səhmdarı, Müşahidə Şurasının üzvü ola bilməz.

4.3.4. Təftiş komissiyası (müfəttiş) Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət və illik hesabatlar və balanslar əsasında rəy tərtib edir. Təftiş komissiyasının (müfəttişin) rəyi olmadan səhmdarların Ümumi Yığıncağı illik balansı təsdiq edə bilməz.

4.3.5. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin təftişi təsərrüfat ili başa çatdıqda Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) təşəbbüsü ilə Ümumi Yığıncağın qərarı ilə və ya Cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və Direktorun tələbi ilə və bu Nizamnamədə nəzərdə tutulan digər hallarda həyata keçirilir.

4.3.6. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) tələbi ilə Cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

## V. CƏMİYYƏTİN SƏHMDARLARI, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. Cəmiyyətin səhmdarı cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir.

5.2. Bir neçə şəxsə bir səhm mənsub olduğu halda, onlar Cəmiyyətə münasibətdə bir səhmdar kimi tanınırlar və öz hüquqlarını nümayəndə vasitəsilə həyata keçirə bilərlər.

5.3. Hər bir səhmdar Cəmiyyətin illik mənfəətinin məbləğindən malik olduğu səhmin dəyərinə uyğun olaraq dividend alır. Səhmə düşən dividendin məbləği səhmdarların Ümumi Yığıncağında müəyyən edilir.

5.4. Ümumi Yığıncağın qərarı ilə səhmlər üzrə dividendlər rüb üzrə də ödənilə bilər.

5.5. Cəmiyyətin adi səhminin sahibi olan səhmdarının bu Nizamnamə ilə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:

5.5.1. Cəmiyyətin idarə edilməsində Azərbayan Respublikasının Mülki Məcəlləsi, digər qanunvericiliklə və bu nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

5.5.2. Bu Nizamnamə və qanunvericiliklə müəyyən edilmiş qaydada, Cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;

5.5.3. Ümumi Yığıncağın çağırılmasını tələb etmək;

5.5.4. Ümumi Yığıncağın gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;

5.5.5. Ümumi Yığıncaqda səsvermə hüququ ilə şəxsən və ya etibarnamə əsasında nümayəndəsi vasitəsilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;

5.5.6. Cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;

5.5.7. Cəmiyyətin xalis mənfəətindən dividend almaq;

5.5.8. Cəmiyyətin fəaliyyətinə xitam verildikdə, Cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq.

5.6. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən digər hüquqlara malik olmaq.

5.7. Hər bir səhmdar malik olduğu səhmlərin sayına görə səs huququna malikdir.

5.8. İmtiyazlı səhmlər öz sahiblərinə Cəmiyyətin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq səhmin nominal dəyərinin sabit faizi şəklində dividendlər almasına təminat, Cəmiyyətin ləğvindən sonra qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququ və bu cür səhmlərin buraxılması şərtlərində nəzərdə tutulan digər hüquqlarlı verir. İmtiyazlı səhmlər öz sahiblərinə Cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququ vermir. İmtiyazlı səhm sahibi Cəmiyyətin yenidən təşkil edilməsi, ləğv edilməsi, səhmdara məxsus olan imtiyazlı səhm növü üzrə hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələrin edilməsi məsələləri üzrə qərarların qəbul edilməsi zamanı səs hüququ əldə edir.

5.9. Cəmiyyətin səhmləri səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxslərin hüquq varislərinə Cəmiyyətin qalan səhmdarlarının razılığı olmadan keçir.

5.10. Cəmiyyətinin səhmdarının vəzifələri aşağıdakılardır:

- Azərbaycan Respublikasının qanunvericilik aktları və (və ya) bu nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;
- Səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestrsaxlayıcısına on təqvim günü ərzində yazılı bildiriş vermək;

- Azərbaycan Respublikasının qanunvericilik aktları və bu Nizamnamə ilə müəyyən edilmiş başqa vəzifələri yerinə yetirmək.

5.11. Səhm bir neçə şəxsin ümumi birgə mülkiyyətində olduğu halda, Ümumi Yığıncaqda səsvermə səlahiyyəti onun mülkiyyətçilərinin birinə və ya onların ümumi nümayəndəsinə qanunvericilikdə müəyyən olunmuş qaydada həvalə edilir.

## VI. CƏMİYYƏTİN YERLƏŞDİRİLMİŞ SƏHMLƏRİNİN GERİ ALINMASI

6.1. Cəmiyyət tərəfindən yerləşdirilmiş səhmlərin geri alınması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda səhmdarların tələbi ilə həyata keçirilir.

6.2. Cəmiyyət nizamnamə kapitalının miqdarını və səhmlərin sayını azaltmaq məqsədi ilə, Ümumi Yığıncağın qərarı əsasında, əvvəl yerləşdirilmiş səhmlərinin bir hissəsini geri ala bilər. Bu zaman dövriyyədə qalan səhmlərin ümumi nominal dəyəri qanunvericiliklə nizamnamə kapitalı üçün müəyyən edilmiş məbləğin minimal həddindən aşağı olmamalıdır.

6.3. Səhmlərin geri alınması səhm sahiblərinin razılığı ilə, səhmlərin geri alınması birja vasitəsi ilə həyata keçirildiyi hal istisna olunmaqla, Ümumi Yığıncaqda səhmin müəyyən olunmuş qiyməti ilə həyata keçirilir.

6.4. Aşağıdakı hallarda Cəmiyyətin səhmlərinin geri alınması qərarı qəbul edilə bilməz:

- Cəmiyyətin nizamnamə kapitalı tam formalaşmadıqda;
- Cəmiyyətin ləğvi barədə qərar qəbul edildikdə;
- Səhmdarların tələbi əsasında onların səhmlərinin geri alınması başa çatmadıqda.

6.5. Geri alınmış səhmlər səsvermə zamanı nəzərə alınmır və onlar üzrə dividendlər hesablanmır. Bu səhmlər geri satın alındığı tarixdən bir il müddətində ya təkrarən yerləşdirilməli, ya da Ümumi Yığıncağın qərarı ilə ləğv edilməlidir.

## VII. CƏMİYYƏTİN SƏHMDARLARININ REYESTRİ

7.1. Cəmiyyət dövlət qeydiyyatına alındığı tarixdən otuz təqvim günündən gec olmayaraq səhmdarlarının reyestrinin aparılmasını təmin etməlidir.

7.2. Cəmiyyətinin səhmdarlarının reyestri mərkəzi depozitar tərəfindən aparılır.

7.3. Səhmdar ildə bir dəfə İcra orqanından səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilər. Bu halda İcra orqanı səhmdarların reyestrini beş gün ərzində həmin səhmdara təqdim etməlidir.

## VIII. CƏMİYYƏTİN ƏMLAKININ YARANMASI VƏ MƏNFƏƏTİNİN BÖLÜŞDÜRÜLMƏSİ

8.1. Cəmiyyətin əmlakı onun əsas fondlarından və dövriyyə vəsaitlərindən, o Cümlədən dəyəri Cəmiyyətin müstəqil balansında əks olunan digər dəyərlərdən ibarətdir.

8.2. Cəmiyyətin əmlakı Cəmiyyətin mülkiyyətidir.

8.3. Cəmiyyətin əmlakının yaranma mənbələri aşağıdakılardır:

- səhmdarların pul və maddi payları;
- göstərilmiş xidmətlərdən, görülmüş işlərdən və təsərrüfat fəaliyyətinin digər növlərindən əldə olunan gəlirlər;
- qiymətli kağızların satışından əldə olunan gəlirlər;

- bank və digər kreditlər;
- kapital qoyuluşları;
- maddi yardımlar, grantlar və digər ianələr;
- qanunvericilikdə qadağan olunmayan digər fəaliyyətlər.

8.4. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağan edilməyən digər mənbələrdən əldə edilən gəlirlər.

8.5. Cəmiyyətin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və bu nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər.

8.6. Xalis mənfəətin Cəmiyyətin maliyyə ili üzrə bölüşdürülməsi Ümumi Yığıncağın qərarı ilə qəbul edilir.

8.7. Cəmiyyət dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər.

8.8. Cəmiyyətin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.

8.9. Adi səhm üzrə dividend Cəmiyyətin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.

8.10. İmtiyazlı səhm üzrə dividend Cəmiyyətin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, imtiyazlı səhm sahiblərinə, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində ödənilən vəsaitdir. Həmin vəsaitin ödənilməsini təmin etmək üçün Cəmiyyət öz vəsaitləri hesabına xüsusi fondlar yarada bilər.

8.11. Dividentlər və onların ödənilməsi haqqında qərar Ümumi Yığıcaq tərəfindən qəbul edilir.

8.12. Cəmiyyət adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.

8.13. Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququnu verən imtiyazlı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür.

8.14. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

8.15. Cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Cəmiyyət dividendləri elan edə və ödəyə bilməz.

## IX. CƏMİYYƏTİN İŞİNİN PLANLAŞDIRILMASI, UÇOTU, HESABATI VƏ MALİYYƏ İLİ

9.1. Cəmiyyətin maliyyə ili - 01 yanvar tarixindən 31 dekabr tarixinədəkdir.

9.2. Cəmiyyət öz fəaliyyətinin nəticələrinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və formada mühasibat, əməliyyat uçotu, statistik hesabat aparır, balans tərtib edir və illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün hər il dərc edir.

## X. SIĞORTALANMA

10.1.Cəmiyyət, əmlakının, istehsal, maliyyə və digər risklərinin sığortalanmasını, Azərbaycan Respublikası qanunvericiliyi ilə icbari sığortası nəzərdə tutulmayan hallarda öz mülahizəsi ilə həyata keçirir.

## XI. VERGİ QOYMA

11.1. Cəmiyyət Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş vergiləri ödəyir.

## XII. ƏMƏK MÜNASİBƏTLƏRİ

12.1. Cəmiyyətdə işçilərlə işəgötürən arasında yaranan əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ-hüquqi aktları ilə tənzimlənir.

## XIII. SOSİAL SIĞORTA VƏ TƏMİNAT

13.1. Cəmiyyətin işçilərinin sosial sığortası və təminatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada həyata keçirilir.

## XIV. CƏMİYYƏTİN KOMMERSİYA SİRRİ

14.1. Cəmiyyətin kommersiya sirri dedikdə, yayılması (ötürülməsi, itirilməsi) Cəmiyyətə ziyan gətirə bilən istehsal, texniki məlumat, idarəolunma, maliyyə və digər fəaliyyət növləri ilə əlaqədar olan qeyri-dövlət sirləri başa düşülür.

14.2. Cəmiyyətin səhmdarı, əmək kollektivinin üzvləri Cəmiyyətin bütün fəaliyyəti dövründə, onun fəaliyyətinin dayandırılmasından və ləğvindən sonra kommersiya sirrini təşkil edən məlumatları açıqlamaq hüququna malik deyildirlər. Əks təqdirdə onlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyətə cəlb oluna bilərlər.

## XV. CƏMİYYƏTİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞVİ QAYDALARI

15.1. Cəmiyyət Ümumi Yığıncağın qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər. Cəmiyyətin yenidən təşkilinin və ləğvinin başqa əsasları və qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ-hüquqi aktları ilə müəyyənləşdirilir.

15.2. Cəmiyyət Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilə bilər.

## XVI. DİGƏR ŞƏRTLƏR

16.1. Bu nizamnamənin tələblərinə riayət edilməsi Cəmiyyətin bütün orqanları, vəzifəli şəxsləri və səhmdarları üçün məcburidir.

16.2. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olan lakin bu Nizamnamə ilə tənzimlənməyən məsələlər Ümumi Yığıncağın qərarı və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

16.3. Bu Nizamnamə Cəmiyyət dövlət qeydiyyatından keçdiyi andan qüvvəyə minir.

16.4. Bu Nizamnamə Ümumi Yığıncağın qərarı ilə tamamlana, tam, yaxud qismən dəyişdirilə bilər.

16.5. Nizamnamədə hər bir sonrakı dəyişiklik hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmaq üçün təqdim edilməlidir və dəyişiklik yalnız hüquqi şəxslərin dövlət reyestrində qeydə alındığı andan hüquqi qüvvəyə minir.

16.6. Gələcəkdə bu Nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəası tətbiq edilir.

***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi***

*Qurumun adı* "İNTERNATİONAL LEASİNG" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Qeydiyyata alındığı tarix* 31.05.2021

*Dövlət qeydiyyat № (VÖEN)* 1405547011

*Təşkilati-hüquqi forması* Açıq səhmdar cəmiyyəti

*Sahibkarlıq subyektinin meyarı* Kiçik sahibkar

*Maliyyə ili* 1 yanvar-31 dekabr

*Hüquqi ünvanı (əvvəlki)* AZ1078, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, ƏBDÜLVAHAB SALAMZADƏ, ev 160, M5, mənzil 1

*Hüquqi ünvanı (hazırki)* AZ1110, BAKI ŞƏHƏRİ NƏRİMANOV RAYONU, AK.HƏSƏN ƏLİYEV, ev 86A

*Çıxarışın verildiyi tarix və №* 23.12.2025, 3-21-2-2-1/2-97871/2025

Cəfərova L.T.

## ***İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin dövlət qeydiyyatı və uçot idarəsi***

*Qurumun adı* "İNTERNATİONAL LEASİNG" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Dövlət qeydiyyat № (VÖEN)* 1405547011

*Nizamnamə kapitalının miqdarı (ödənilmiş)* 1,000,000.00 manat

*Təsisçilər və nizamnamə kapitalında mayalarının miqdarı*

HƏSƏNOV NİCAT VAQİF OĞLU - 45 %, HƏSƏNOV RİFAT VAQİF OĞLU - 45 % və CABBAROVA LEYLA VAQİF QIZI - 10 %

*Qanuni təmsilçi (əvvəlki)* QAFARZADƏ AZAD KALAM OĞLU

*Qanuni təmsilçi (hazırki)* VƏLİYEV ELŞƏN SƏRHAD OĞLU

*Çıxarışın verildiyi tarix və №* 23.12.2025, 3-21-2-2-1/2-97871/2025

Cəfərova L.T.

*Qeydiyyat orqanının adı* Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi

*Qurumun adı* **"İNTERNATİONAL LEASİNG" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

*Ünvanı* AZ1078, BAKI ŞƏHƏRİ NƏSİMİ RAYONU, ABDULVAHAB SALAMZADƏ, ev.160, M5, m.1

*Qeydiyyata alındığı tarix* 31.05.2021

***Hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il tarixli Fərmanına əsasən 'bir pəncərə' prinsipi ilə dövlət qeydiyyatına alınmışdır.***

**№(VÖEN) 1405547011**

**Şəfiyev Müslüm Həmidağa oğlu**

Qeydiyyat orqanının rəhbəri 31.07.2023